2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Samir Tağıyevin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 8 yanvar 2015-ci il tarixli 142 saylı müraciət üzrə

**RƏYİ**

Bakı şəhəri 8 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Samir Tağıyev 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində seçkilərində 65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsindən Sor Sor bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Bayramov Vidadi Ağasəf oğlu tərəfindən 2015-ci il yanvarın 8-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciəti nəzərdən keçirərkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikasının Seçki Məcəlləsində və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"da nəzərdə tutulmuş müddət ötürülməklə verilmişdir.

Belə ki, Azərbaycan Respubliası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci bəndinə əsasən seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1-ci, 2-ci, 4.1.2-ci, 6-cı və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində seçkilərində 65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsindən Sor Sor bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Bayramov Vidadi Ağasəf oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 8 yanvar 2015-ci il tarixli 142 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən ərizəçiyə geri göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Samir Tağıyev